# Azərbaycan Ordusunun möhtəşəm qələbəsi

Bir neçə ay bundan əvvəl "Qarabağ Ermənistandır" deyən, işqal altında olan torpaqlarımızda erməni əsgərləri ilə görüşüb onları yeni təxribatlar törətməyə ruhlandıran, sərxoş vəziyyətdə Şuşa şəhərində yallı gedən və sərsəm bəyanatlar verməkdən utanmayan Ermənistanın baş naziri Nikol Paşinyan bu gün tamamilə başını itirmişdir. O, indi Qarabağın adını çəkməkdən qorxur, rəqs edə bilmir, şərab içmir, qaçıb gizlənməyə bir yer axtarır. Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan Ordusu, igid əsgərlərimiz Paşinyanı elə bir dalana diriyiblər ki, nə edəcəyini bilmir. Çünki bütün havadarları, "atası", arxası Soros, erməni diasporu , xalq ondan üz döndərib. Paşinyanın mülkü başına uçurdulur, vəzifəsi əlindən alınır, ailəsi ələ salınır.



Erməni xalqı gec də olsa erməni millətçilərinin, quldurlarının onların başına nələr gətirdiklərini, "Böyük Ermənistan" xülyası ilə insanları illər boyu aldatdıqlarını, düşmənçilik toxumu səpdiklərini indi anlamağa başlamışlar. Onlar Qarabağ kartı üzərində hakimiyyətə gələn koçaryanların, sarkisyanların, paşinyanların iç üzünü yaxşı görmədikləri üçün illərlə bu qatillərin yağlı dillərinə, yalan vədlərinə, saxta bəyanatlarına inanmış, xülyalara uymuş və uçuruma yuvarlanmışlar.

Azərbaycan xalqının faciəsi, insanların qanı üzərində hakimiyyətə gələn, havadarlarına arxalanaraq soyqırımlar, saysız-hesabsız qətllər törədən Ermənistanın hərbi-siyasi rəhbərliyi nəinki xalqımızı, ilk növbədə, öz xalqını da ağır vəziyyətə salmışdır. Təcavüz yolunu tutan Ermənistanın iqtisadiyyatı tamamilə çökmüş, ölkə beynəlxalq aləmdə nüfuzunu itirmiş, siyasi qarşıdurmaların, terrorun yuvasına çevrilmişdir.

Qondarma "Dağlıq Qarabağ respublikası" xülyası erməni rəhbərlərinin siyasi fəaliyyətinin əsasını təşkil etmiş və bu vasitə ilə öz xalqını aldadıb tora salmışlar. İndi onların özləri də tora düşmüşlər. Xalqın malını-dövlətini taladıqlarına, onlara qəsd etdiklərinə, güllələdiklərinə, öldürdüklərinə, incitdiklərinə görə Koçaryan, Sarkisyan, Paşinyan kimi insan qatilləri öz cəzalarını çəkməlidirlər. Axı onlar qondarma Dağlıq Qarabağ uğrunda döyüşlərdə nəinki Azərbaycan xalqının övladlarına qəsd etmiş, eləcə də minlərlə erməninin ölümünə səbəb olmuşlar. Bu qatillər Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu bilməmiş deyildilər. Onu da yaxşı bilirdilər ki, axıtdıqları günahsız qan yerdə qalmayacaq, haqq öz sözünü deyəcəkdir. Axı bu qaniçənlər Azərbaycan xalqının cəsarətinə, hünərinə, torpaq, vətən məhəbbətinə, yurd-yuva sədaqətinə yaxşı bələd idilər. Azərbaycanın gündən-günə qüdrətləndiyini, inkişaf etdiyini, beynəlxalq aləmdə tanındığını, şöhrətləndiyini, xalqımızın birliyini, əzmini görürdülər, duyurdular, xalqımızın səbrinin tükəndiyini dərk edirdilər.

Səbəbsiz deyildi ki, 12 mart 1992-ci ildə Fransada çıxan jurnalların birində "Hücumdan öncə" yazısını çap etdirən erməni jurnalist Bolain Sirasyan yazırdı: "Xocalını gözlərimlə gördüm. Hər yerdən qan iyi gəlirdi. Qar üstündəki kimsəsiz, sahibsiz cəsədlərdən qorxdum. Qorxdum ki, bu gün üçün heç vaxt Azərbaycan tərəfi, sabahkı nəsillər susmasın". Erməni jurnalistin dediyi o gün artıq gəlib çıxdı. Axı erməni təcavüzkarlar, insan qatilləri Azərbaycan Prezidentinin, Ali Baş Komandan cənab İlham Əliyevin kəsgin, qətiyyətli çıxışlarını, bəyanatlarını, tövsiyələrini eşidir, sülh, danışıqlar yolunda atdığı addımları və bu hərəkətlərin, amalların nəyə hesablandığını yaxşı bilirdilər. Belə olan halda nədən onlar öz yollarından dönmürdülər, insanları qırğına verməkdən çəkinmirdilər, dinə-imana gəlmirdilər? Bu sualların cavabı sadədir - onlar qaniçən, cəllad, qəddar, xəyanətkar tərbiyə olunublar. Çünki babalarından belə dərs alıblar. Axı onlar daşnaq ideoloqu, türkün, azərbaycanlıların qanını hər an içməyə hazır olan və bunu bütün əsərlərində, çıxışlarında ifadə edən, azərbaycanlı uşaqların başına gətirilən müsibətlərdən həzz alan Zori Balayanın yetişdirmələridir. Dərslərini ondan alıb, onun bəşəri dəyərlərə ləkə salan kitablarını oxuyublar, ata-analarından türkə nifrət öyrəniblər. Balayanın yazdığı bu cümlələr ermənilərin əxlaqını, niyyətini, qaniçən əməllərini ortaya qoyur: "Biz Xaçaturla ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqədən sonra qan itirərək dünyasını dəyişdi. Ruhum sevincdən qürurlandı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı bu türklə eyni kökdən olan itlərə atdı. Axşam eyni şeyi daha 3 türk uşağına etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bilirdim ki, hər bir erməni hərəkətlərimlə fəxr duyacaq".

Məhz bu qəddarlığa, vəhşiliyə görə də Azərbaycan Prezidenti, Ali Baş Komandan öz sözünü dedi, ordumuz düşmənə öz yerini göstərdi. Qələbə bizimlədir və biz haqq mübarizəsində qalibik.

Azərbaycan xalqı yumruq kimi birdir. Ermənistanın məğlub olması Azərbaycan-Rusiya-Ermənistan rəhbərlərinin üçtərəfli bəyanatlarından da aydın görünür. Biz döyüşlərdə böyük uğurlar qazanmağımıza, düşməni, demək olar ki, məhv etməyimizə baxmayaraq, Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev bir daha bəşəri dəyərlərə, beynəlxalq hüquq normalarına, sülhsevər təşəbbüslərə sadiqliyini nümayiş etdirdi, qan axıdılmasının, insan itkisinin, tələfatın, qəddarlığın, zülmün tərəfdarı olmadığını bütün dünyaya göstərdi.

Halbuki ordumuz, igid əsgər və zabitlərimiz zəfər yürüşünü davam etdirə, düşmənin qalan qüvvələrini bir neçə gün ərzində məhv edə bilərdi. Ancaq ölkəmizin başçısı buna getmədi, erməni analarını bir daha gözüyaşlı qoymaq istəmədi, zorla müharibəyə cəlb edilən gənclərə, qocalara qıymadı. Bu böyük insanpərvərlik, ali hisslərə sahib olmaq, düşmən də olsa, insanı qiymətləndirməkdir. İmzalanmış bəyanat bir daha erməniləri ölümdən qurtardı (eyni zamanda bu, ilk növbədə, Ermənistanın döyüşdə məğlub olmasını təsdiqləyir, müharibəni, insan tələfatını dayandırır. Digər tərəfdən, azad olunmamış müəyyən kənd və rayonlarımızın sülh yolu ilə azad olunmasına imkan yaradır. Başlıcası rus və türk əsgərlərin sülh prosesində iştirakını təmin edir ki, bu da gələcəkdə hər hansı bir təxribata, silahlı qarşıdurmaya cəhd edilməsinin qarşısını almış olacaq. Ermənistana məxsus ərazidən Azərbaycanla Naxçıvanın quru yolla əlaqə saxlaması üçün imkanlar yaradılması - yol çəkilməsi mühüm bir hadisə kimi qiymətləndirilməlidir. Bu yolda gediş-gəlişə bilavasitə rus əsgərləri tərəfindən nəzarət ediləcəkdir ki, bu da təhlükəsizliyin təminatı üçün vacibdir.

Ümumiyyətlə, imzalanmış bəyanat Azərbaycanın mənafeyinə, gələcək proseslərin uğurla həyata keçirilməsinə tam uyğundur və dövlətimizin mövqeyini əks etdirir. Bunu dövlət başçısı İlham Əliyev xalqımıza müraciətində, çıxışlarında xatırlatmış və zamanın bizim xeyrimizə işlədiyini bildirmişdir.

Bəs Ermənistanda vəziyyət necədir. Artıq xalq bir-birini qırır. Ölkə dağılır, özbaşınalıqdır. Ölkə rəhbərlərinin başı yumruq altındadır. Hətta baş nazir Paşinyanın otağı belə qarət olunur, saatı oğurlanır.

Ölkənin belə çıxılmaz bir vəziyyətində Ermənistanın baş naziri xalqın vəziyyətini dilə gətirmək əvəzinə qol saatının oğurlanmasından şikayətlənir və saatını axtarır. O, tək saatını yox, itirdiyi başını axtarmalıdır.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

Azərbaycan.- 2020.-15 noyabr.- S.6.